# Akademik Budaq Budaqov türk dünyası toponimlərinin araşdırıcısı kimi

**Azərbaycan elminin inkişafında çoxsaylı xidmətləri olan akademik Budaq Budaqovun elmi yaradıcılığı məzmun zənginliyi, mövzuların üfüq genişliyi ilə seçilir. Göy qurşağına bənzər bu yaradıcılıqda coğrafiya elminin sirləri, təbiətin poeziyası, Sakit okeandan tutmuş Atlantik okeanına qədər olan ərazilərdə türk xalqlarının tarixi, məktəb coğrafiyası, folklor nümunələri, parça-parça olmuş Vətənin Göyçəsinin, Zəngəzurunun, Dərbəndinin, Təbrizinin, Borçalısının, Qarabağının dərdləri... hər şey var və bu yaradıcılıq həm də həyatiliyi ilə fərqlənir.**



B.Budaqovun çoxsahəli elmi yaradıcılığının əsas istiqamətlərindən birini də onun toponimika sahəsindəki uğurlu tədqiqatları təşkil edir. Alim elmi yaradıcılığının ilkin çağlarından coğrafi terminlər - coğrafi termin mənası daşıyan xalq deyimləri, coğrafi adlar, coğrafi terminoloji lüğətlərlə bağlı araşdırmaları ilə Azərbaycan toponimiyasının elmi cəhətdən öyrənilməsi, toponimik tədqiqatların bir məcrada birləşdirilməsi, onların vahid tədqiqat üsul və prinsipləri əsasında araşdırılması, müxtəlif növ coğrafi adların yaranma qanunauyğunluqlarının müəyyən edilməsi sahəsində yeni cığır açdı. O, Azərbaycanda ilk dəfə olaraq toponimlərin fiziki-coğrafi əsasını işlətdi, Şərqi Zaqafqaziyanın palçıq vulkanlarının adlarının mənşəyini aydınlaşdırdı, "Kitabi-Dədə Qorqud" dastanındakı toponimləri araşdırmaqla onun Azərbaycana daha çox bağlı olması fikrini dəqiqləşdirdi, Azərbaycan toponimlərinin elmi-təcrübi mahiyyətini açaraq onların öyrənilməsinin təməl prinsiplərini irəli sürdü. B.Budaqovun təşəbbüsü və təşkilatçılığı ilə 1973-cü ildə keçmiş SSRİ EA coğrafiya institutları arasında ilk dəfə Azərbaycan SSR EA Coğrafiya İnstitutunda toponimika şöbəsi təşkil edildi və respublikada toponimikaya həsr edilmiş ilk elmi konfrans keçirildi. Alimin məşhur *"Coğrafi ad dilçilik elmsiz lal, tarix elmsiz köksüz və coğrafiya elmsiz məkansızdır"* — fikri 70-ci illərdən başlayaraq toponimik tədqiqatların bu üç elmin qovşağında inkişafını yeni axara yönəltdi.

Azərbaycan coğrafiya elminin klassiklərindən sayılan akademik B.Budaqov təkcə Azərbaycanın deyil, ümumtürk dünyasının görkəmli alimlərindəndir. Onun Türk dünyasının bir çox ölkələrinin (Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və s.) geomorfologiyasının öyrənilməsində və bu ölkələrdə coğrafiyanın müxtəlif istiqamətləri üzrə mütəxəssislərin hazırlanmasında böyük xidmətləri olmuşdur. Lakin B.Budaqovun türk dünyası ölkələrinə ən böyük töhfəsi toponimika sahəsindəki tədqiqatları ilə bağlıdır. Onun Türk dünyası toponimiyasını tədqiq etməsi sovet qanunlarının türkçülüyü qadağan etdiyi bir dövrə təsadüf edirdi və əslində, o dövrdə bu tədqiqatları aparmaq alim üçün cəsarətli bir addım idi. Sonralar bütün Türk dünyası toponimlərinin öyrənilməsi sahəsində ardıcıl və məqsədyönlü elmi araşdırmaları onu türk dünyası toponimika məktəbinin banilərindən biri kimi tanıtdı.

Bu baxımdan B.Budaqovun "Türk uluslarının yer yaddaşı" (1994) monoqrafiyası bu səpkidə yazılmış ilk uğurlu əsər olmaqla dünya miqyasında toponimlər üzrə aparılan ən dəyərli toponimik tədqiqatlar cərgəsində dayanmaq hüququ qazandı. Tarix elmləri doktoru Qiyasəddin Qeybullayev əsərin yüksək dəyəri haqqında haqlı olaraq yazırdı ki, "türk xalqlarının yaşadığı ölkələrin heç birində indiyədək bu səpkidə əsər yazılmamışdır". Türkiyə Respublikasının dövlət xadimi Turqut Ozalın xatirəsinə ithaf edilmiş bu əsər yenidən işləndikdən sonra "Avrasiyanın türk toponimləri" adı altında rus (1998) və ingilis (2007) dillərində nəşr edilmişdir.

Türk dünyasının coğrafi adlarının elmi təhlilinə həsr edilmiş həmin əsərlər türkdilli xalqların uzaq tarixi keçmişdən Sakit okeanın sahillərindən başlayaraq Atlantik okeanı sahillərinə qədər geniş bir ərazidə yaşamasını göstərən ensiklopedik dəyəri olan əsərlərdir. B.Budaqov özünəməxsus tərtib prinsipi və yazılış üslubu ilə seçilən həmin əsərlərində ilk dəfə olaraq türkdilli xalqların coğrafi adları arasında oxşarlar (parallellər) aşkar edərək bununla da toponimlərin tarixi sərhədlərini və miqrasiya yollarını müəyyənləşdirmiş, türkdilli xalqların indikinə nisbətən daha geniş ərazilərdə yaşadıqlarını və bu ərazilərin avtoxton etnosu olmasını təsdiq etmişdir.

Onun türkdilli xalqların toponimlərini araşdırması nəticəsində aşkar etdiyi paralellərin fərqli və oxşar cəhətlərinin ortaq toponimlərin tədqiqində əhəmiyyətini aşağıdakı kimi ümumiləşdirmək olar: bu tədqiqatlar türk xalqlarının toponimiyası ilə Azərbaycan toponimiyasının əlaqəli surətdə tədqiqi sahəsində ilk təşəbbüs və əsas oldu; alimin türk xalqlarının ümummədəni irsinə onların hər birinin özünəməxsusluğu mövqeyindən yanaşması türk xalqları toponimiyasında nəzəri-toponimik fikrə yenilik gətirdi; türk xalqlarının toponimlərinin Azərbaycandakı eyni toponimik paralellərlə müqayisəli təhlili onların mənasını açmağa və etimologiyasını dəqiqləşdirməyə imkan yaratdı; paralellərin aşkar edilərək sistemləşdirilməsinin bir sıra toponimlərin yayılma areallarının dəqiqləşdirilməsi və onların milli mənsubiyyətinin aydınlaşdırılması baxımından mühüm əhəmiyyəti oldu; tədqiqatlardan aydın oldu ki, türk xalqlarının toponimləri fonetik və leksik xüsusiyyətləri ilə fərqlənsələr də, vahid qanunauyğunluq əsasında yaranmış sistem təşkil edərək eyni struktur və mənşəyə malikdir. Bu isə türk xalqlarının vahid dil ailəsinin müxtəlif qollarına mənsub olmaqla onların bu ərazilərdə köklü (avtoxton) etnos olduğunu və toponim yaradıcılığında eyni coğrafi anlayışlardan istifadə etdiyini göstərdi; toponimik paralellərin tədqiqi Azərbaycan ərazisinin ən qədim zamanlardan türk etnoslarının ilk məskunlaşma arealına daxil olduğunu əsaslı dəlillərlə sübut etdi; tədqiqatlar təsdiq etdi ki, rus və sovet imperiyasının, indi isə Rusiya Federasiyasının və bir sıra MDB ölkələrinin ərazisi kimi tanınan torpaqların xeyli hissəsi vaxtilə böyük türk imperatorluğuna məxsus olmuşdur.

B.Budaqovun toponimiya sahəsindəki tədqiqatları bir sıra məsələlərə də aydınlıq gətirir. Məsələn, məlum olur ki, türkdilli xalqların dillərində yaranmış adların çoxu təbii obyekt adlarıdır. "Heç bir dildə türk dillərində olduğu qədər, yerin coğrafi şəraitini dəqiqliklə ifadə edən terminlər yoxdur" - deyən alim, bunun səbəbini türkdilli xalqların həyat tərzlərinin təbii şəraitlə sıx bağlı və ondan daha çox asılı olması ilə izah edir. O, yaşayış məntəqələrinin adlarında qeyri-türk xalqlarının (xüsusilə rus) adlarına çox rast gəlinməsini isə həmin xalqların bu ərazilərə sonradan gəlmələri ilə əlaqədar olduğunu göstərir.

B.Budaqovun toponimika sahəsində tədqiqatlarının əksəriyyətinin əsas qayəsini Azərbaycan xalqının tarixi taleyi, Azərbaycanın və türk uluslarının dünyada mövqeyi, ümumtürk xalqlarının tarixi rolu məsələsi təşkil edir. Bu baxımdan alimin Ermənistan, Gürcüstan, Dağıstan ərazilərindəki türk mənşəli toponimlərin tədqiqi və bu sahədəki əsərləri Cənubi Qafqazda və Azərbaycanda yaşamış türklərin tarixi-coğrafi arealını, tarixi-etnik mənşəyini, təşəkkül və inkişaf tarixini əks etdirən ən dəyərli qaynaqlar olmaqla böyük tarixi əhəmiyyət kəsb edir. Onların arasında tədqiqatçının Q.Qeybullayevlə birlikdə yazdığı "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" fundamental əsəri (1998) yeni dövr qarşısında duran problemlərin həllinin daha çox zəruri olduğu və tarixi-siyasi cəhətdən daha çox əhəmiyyət daşıdığı bir vaxtda yazıldığından mühüm əhəmiyyətə malikdir. Əsər əsasən XVI-XX əsrlərdə indiki Ermənistan ərazisində mövcud olmuş coğrafi adlara həsr edilmişdir. Alim yüksək elmi-nəzəri səviyyədə yazılmış bu əsərdə Azərbaycanın qədim tarixinə aid materiallar verən Movses, Xorenasi, Sebeos, Favstos Buzand və s. kimi erməni dilli mənbələrdən geniş istifadə etmişdir.

"Azərbaycan xalqının çoxəsrlik tarixinin və mədəniyyətinin salnaməsi" (H.Orucov) adlandırılan bu əsər sözün həqiqi mənasında Azərbaycanın qədim bir bölgəsinin gen yaddaşının söz abidəsidir. Lüğətin istər B.Budaqov yaradıcılığında, istərsə də Azərbaycan toponimika elmində nə qədər önəmli yer tutduğunu akademik Vasim Məmmədəliyevin söylədiyi fikirdən də aydın görmək olar: "Budaq müəllimin təkcə Qərbi Azərbaycanın toponimikası ilə bağlı apardığı araşdırmalar, tədqiqat işləri onun elm tariximizdə görkəmli bir alim kimi həmişəlik qalması üçün kifayət edərdi".

Ermənistan ərazisində türk mənşəli adların tədqiq edilməsi sahəsində ilk təşəbbüs olan bu əsər tarixi həqiqəti bərpa edərək bir daha sübut etdi: beş min türk mənşəli toponimi olan millət gəlmə deyil, bu ərazinin aborigenləridir; türkdilli tayfalar iki min ildən artıqdır ki, indiki Ermənistan ərazisinin əsl sahibləridirlər və ermənilər tarixən bu ərazidə daimi yaşamamışlar; Azərbaycan mənşəli coğrafi adlar Ermənistan ərazisində qədim tarixə malik olmaqla Azərbaycan toponimiyasının tərkib hissəsidir; ermənicə olan tək-tük coğrafi adlara istər indiki Ermənistanda, istərsə də Dağlıq Qarabağda rast gəlinməsi yalnız XIX əsrin əvvəllərindən etibarən ermənilərin bu ərazilərə köçürülməsindən sonra yaranmışdır; son dövrlərə qədər erməni toponimləri kimi qələmə verilən *Kanqark, Quqark, Tayk, Tuara, Kolt, Kolb, Gorus, Şirak, Ararat, Eçmiədzin, Sevan* və s. adlar türk mənşəlidir; türklərin qədim torpağı olan Ermənistanda azərbaycanlıların etnogenezində müxtəlif qədim türk tayfaları *(kəmər, sak, hun, goros, avar, abdal və s.)* iştirak etmişlər və qeyri-türk tarixçilərinin (rus, erməni, fars) türk xalqlarının, o cümlədən azərbaycanlıların etnik tarixinə dair qərəzli fikirləri əsassızdır; "erməni qonşusu olan günün 24 saatının 24-nü də ayıq-sayıq olmalıdır".

Qeyd etmək lazımdır ki, Ermənistan SSR-də Azərbaycan toponimlərinin dəyişdirilməsi barədə ilk fərman 1935-ci ildə verilmiş və bu toponimik genosid 1990-cı ildə tam olaraq başa çatdırılmışdır. B.Budaqov hələ keçən əsrin 70-ci illərində gen yaddaşına əsaslanan uzaqgörənliklə Azərbaycanla Ermənistan sərhədində olan türk mənşəli coğrafi adların mexaniki olaraq erməniləşdirilməsinin qəti əleyhinə çıxmış və dəyişdirilmiş bir çox adları *(Işıqlı-İşxansar, Qaragöl-Sevlic, Gəlinqaya-Harsanisar və s.)* bərpa etmişdir.

B.Budaqovun toponimik tədqiqatlarında Gürcüstan ərazisində mövcud olan türk mənşəli toponimlərin yayılma arealları, onların yaranma tarixi, etimologiyası mühüm yer tutur. Alimin Q.Qeybullayevlə birlikdə bu ərazinin türk mənşəli toponimiyasına həsr etdikləri "Gürcüstanda türk-mənşəli toponimlərin izahlı lüğəti" (2002) əsərindən aydın olur ki, indiyədək İrandilli və Qafqazdilli kimi tanınan *kimmerlər, saklar, şiraklar, kaspilər, albanlar, qaraqalpaqlar* və s. qədim türk mənşəli etnoslardır. Bütün bunlar sübut edir ki, Gürcüstan toponimiyasının yaranmasında türkdilli xalqlar yaxından iştirak etmişlər. Bundan başqa, Gürcüstanın ermənilər yaşayan bir çox kəndlərinin adlarının *(Qızılkilsə, Ayazma, Taşbaşı, Uzunlar, Şınıx, Çala və s.)* türk mənşəli olması sübut edir ki, buradakı ermənilər də köklü olmamışlar. B.Budaqov, gürcülərlə azərbaycanlıların tarixən dost və mehriban qonşuluqlarına baxmayaraq, bu ölkədə də türk mənşəli coğrafi adların əsassız olaraq dəyişdirilməsinə öz etirazını bildirmişdir.

Alimin Q.Qeybullayevlə birgə yazdığı "Naxçıvan diyarının yer yaddaşının izahlı lüğəti" (2004) və N.Məmmədovla birgə yazdığı "Azərbaycanın Lənkəran regionu toponimlərinin izahlı lüğəti" (2008) əsərlərindəki toponimlərin mənşəyinin izahı da göstərir ki, Azərbaycanın hər bir bölgəsinin zəngin tarixi vardır və bu regionlarda qədim və orta əsrlərdən azərbaycanlılar hakim mövqedə durmuş, digər xalqların toponimləri türk toponimik fonunda formalaşmışlar. Bu araşdırmalar bir daha təsdiq etdi ki, Azərbaycan xalqı heç bir xalqa yamaq olmamışdır və türk xalqları ailəsində müstəqil bir xalqdır, Azərbaycan dili isə heç bir dil şivəsi deyil və həmin ailənin müstəqil bir dilidir.

B.Budaqovun türk dünyası toponimlərinin qorunması üçün bir çox dəyərli tövsiyə və təklifləri vardır: bir neçə cildlik türk toponimləri lüğətinin tərtib edilməsi, Şərqi Avropada, xüsusilə Krım yarımadasında yayılmış türk mənşəli adların tədqiq olunması, toponimlərin birdəfəlik toxunulmazlığının qorunması üçün "Qırmızı kitab"ın yaradılması və s.

Akademikin türk dünyası toponimiyasının öyrənilməsi sahəsindəki tədqiqatları türkdilli xalqların qədim dövrlərdən başlayaraq dünya mədəniyyətinin tərkib hissəsi olduğunu, dünya əhalisinin miqrasiyasında, mədəniyyətlərin qovuşdurulmasında yaxından iştirak etdiyini sübuta yetirən dəyərli qaynaqlardandır. Əslində alimin bu tədqiqatları Türk-İslam dünyasının ən böyük simalarından biri olan Mahmud Kaşqarlı (1029-1126) irsinin davamıdır. Əgər X əsrdə bu böyük alim türk xalqlarının əzəmətini, böyüklüyünü, qüdrətini göstərmək üçün türklərin ilk dünya xəritəsini çəkmişdirsə, ondan on əsr sonra B.Budaqov Şimali, Mərkəzi və Cənub-Qərbi Asiyada, Şərqi Avropada yayılmış türk coğrafi adlarını tədqiq etməklə Türk dünyası xalqlarının yer yaddaşını oyatdı. Akademik bu tədqiqatları ilə bir daha sübut etdi ki, türkdilli xalqlar məkanca fərqlənsələr də, ta qədimdən onların dil, adət-ənənə mənşəyi mahiyyətcə bütövdür və bir-biri ilə sıx bağlıdır.

B.Budaqovun toponimika sahəsində yazdığı əsərlər türk dünyasının zəngin mənəviyyat xəzinəsinə daxil olmaqla türk xalqlarının tarixi köklərinin, qədim yurd yerlərinin araşdırılıb gələcək nəsillərə çatdırılması, milli-etnik zənginliyimizin öyrənilməsi və öz doğma yurdlarından didərgin düşənlərə təsəlli baxımından möhtəşəm mənbə olmaqla alimi əsrlər boyu türk diyarlarının elm tarixində yaşadacaqdır.

**Flora MƏMMƏDOVA,**
**Azərbaycan MEA-nın Coğrafiya İnstitutunun böyük elmi işçisi.**